III BÖLMƏ: DAYANIQLI İNKİŞAF VƏ İQLİM SİYASƏTİ

# DAYANIQLI İNKİŞAF ŞƏRAİTİNDƏ KƏND TƏSƏRRÜFATININ İQTİSADİ ARTIMA TƏSİRLƏRİ

DOİ: https://doi.org/10.71447/2413-7235-2025-1-36

**i.ü.f.d., dosent Turanə V. Əhmədova**
*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*
*İqtisadi Elmi Tədqiqat İnstitutu*
*"İstehsal sahələri" şöbəsinin baş elmi işçisi,*
*E-mail: turana.ahmadova@esri.gov.az*
***ORCID:** 0009-0003-6406-3377*

**Xülasə**

Müasir dövrdə dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi qlobal və regional səviyyədə qarşıya qoyulan əsas prioritetlərdən biridir. Cəmiyyətin sağlam, təhlükəsiz və yüksək rifah səviyyəsində yaşaması üçün dayanıqlı inkişaf konsepsiyası xüsusi əhəmiyyət daşıyır. Bu inkişaf modeli bir tərəfdən təbii resursların qorunmasını, digər tərəfdən isə ətraf mühitlə insan fəaliyyətləri arasında balansın yaradılmasını hədəfləyir. Dayanıqlı inkişafın əsas prinsiplərinə iqtisadi artımın təmin olunması, sosial inklüzivliyin genişləndirilməsi və ətraf mühitin qorunması daxildir. Bu prinsiplərin sinxron şəkildə həyata keçirilməsi isə uzunmüddətli və davamlı tərəqqinin əsas şərti sayılır. Bu kontekstdə kənd təsərrüfatının sosial-iqtisadi inkişafa təsirinin araşdırılması xüsusi aktuallıq kəsb edir. Kənd təsərrüfatı həm qida təhlükəsizliyinin təmin olunmasında, həm də regionlarda məşğulluğun artırılmasında mühüm rol oynayır. Eyni zamanda, bu sahədə tətbiq olunan müasir və innovativ metodlar resursların daha səmərəli istifadəsinə, məhsuldarlığın artmasına və ekoloji tarazlığın qorunmasına imkan yaradır. Dayanıqlı kənd təsərrüfatı sistemləri yalnız təbii ehtiyatların optimal idarə olunması ilə məhdudlaşmır, eyni zamanda kənd yerlərində iqtisadi fəallığın və innovasiya potensialının artırılması, kənd ərazilərinin inkişafı, sosial infrastrukturun genişləndirilməsi və iqlim dəyişikliyinə uyğunlaşma potensialının gücləndirilməsi baxımından da önəmlidir. Həmçinin bu sahədə tətbiq olunan müasir və innovativ metodlar torpaq, su və digər təbii ehtiyatların optimal idarə olunması ilə yanaşı, iqtisadi artıma da mühüm töhfə verir. Bu səbəbdən kənd təsərrüfatında dayanıqlı inkişaf modellərinin tətbiqi və təkmilləşdirilməsi mühüm tədqiqat istiqamətlərindən biri kimi qiymətləndirilir.

***Açar sözlər:** dayanıqlı inkişaf, dayanıqlı kənd təsərrüfatı, iqtisadi artım, ərzaq təhlükəsizliyi, ətraf mühitin qorunması, məşğulluğun təmini*

# THE IMPACT OF AGRICULTURE ON ECONOMIC GROWTH UNDER SUSTAINABLE DEVELOPMENT CONDITIONS

PhD in Economics, associate professor **Turana V. Ahmadova**
*Ministry of Economy of the Republic of Azerbaijan*
*The Economic Scientific Research Institute*
*Senior researcher of "Production sectors" department*
*E-mail: turana.ahmadova@esri.gov.az*
***ORCID:** 0009-0003-6406-3377*

**Abstract**

In the modern era, ensuring sustainable socio-economic development is regarded as one of the main priorities at both global and regional levels. The concept of sustainable development holds particular significance for ensuring a healthy, safe, and high standard of living for society. This development model aims, on the one hand, to preserve natural resources and, on the other, to establish a balance between human activities and the environment. The key principles of sustainable development include promoting economic growth, expanding social inclusivity, and protecting the environment. The simultaneous implementation of these principles is considered a fundamental condition for long-term and continuous progress.

In this context, the study of the impact of agriculture on socio-economic development gains particular relevance. Agriculture plays a vital role not only in ensuring food security but also in increasing employment in rural regions. At the same time, the application of modern and innovative methods in this sector enables more efficient use of resources, enhances productivity, and contributes to maintaining ecological balance.

Sustainable agricultural systems are not limited to the optimal management of natural resources such as land and water; they also play an important role in increasing economic activity and innovation potential in rural areas, promoting rural development, expanding social infrastructure, and strengthening the capacity to adapt to climate change. Moreover, the implementation of modern and innovative approaches in agriculture significantly contributes to both the efficient use of natural resources and the overall economic growth. For this reason, the application and improvement of sustainable development models in agriculture is considered one of the key directions of contemporary research.

***Key words***: *sustainable development, sustainable agriculture, economic growth, food security, environmental protection, ensuring employment*

# ВОЗДЕЙСТВИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА НА ЭКОНОМИЧЕСКИЙ РОСТ В УСЛОВИЯХ УСТОЙЧИВОГО РАЗВИТИЯ

доктор философских наук по экономики, доцент **Турана В. Ахмедова**
*Министерство Экономики Азербайджанской Республики*
*Научно-исследовательский Институт Экономики*
*старший научный сотрудник отдела «Производ-ственные отрасли»,*
*E-mail: turana.ahmadova@esri.gov.az*
***ORCID**: 0009-0003-6406-3377*

**Резюме**

В современную эпоху обеспечение устойчивого социально-экономического развития является одним из основных приоритетов как на глобальном, так и на региональном уровнях. Концепция устойчивого развития приобретает особое значение для обеспечения здоровой, безопасной и высоко благополучной жизни общества. Данная модель развития, с одной стороны, направлена на сохранение природных ресурсов, а с другой - на достижение баланса между окружающей средой и деятельностью человека. Основными принципами устойчивого развития являются обеспечение экономического роста, расширение социальной инклюзивности и охрана окружающей среды. Синхронная реализация этих принципов рассматривается как основное условие долгосрочного и стабильного прогресса. В этом контексте исследование влияния сельского хозяйства на социально-

экономическое развитие приобретает особую актуальность. Сельское хозяйство играет важную роль как в обеспечении продовольственной безопасности, так и в повышении занятости в регионах. В то же время внедрение современных и инновационных методов в этой сфере способствует более эффективному использованию ресурсов, повышению продуктивности и сохранению экологического баланса. Устойчивые системы сельского хозяйства не ограничиваются лишь рациональным управлением природными ресурсами, но также играют важную роль в повышении экономической активности и инновационного потенциала в сельской местности, развитии сельских территорий, расширении социальной инфраструктуры и укреплении потенциала адаптации к изменению климата. Кроме того, внедряемые в данной сфере современные и инновационные методы не только обеспечивают оптимальное управление землёй, водой и другими природными ресурсами, но и вносят значительный вклад в экономический рост. По этой причине применение и совершенствование моделей устойчивого развития в сельском хозяйстве рассматриваются как одно из приоритетных направлений научных исследований.

***Ключевые слова:*** *устойчивое развитие, устойчивое сельское хозяйство, экономический рост, продовольственная безопасность, охрана окружающей среды, обеспечение занятости*

## GİRİŞ

Dayanıqlı inkişaf regionlarda ən yeni texnologiyalara söykənən aqrar-sənaye komplekslərinin yaradılması, yüngül və qida sənayesinin inkişafı, yoxsulluğun, işsizliyin aradan qaldırılması, əhalinin məşğulluğunun təmin edilməsini nəzərdə tutur. Həmçinin neft sektorundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması və ölkə iqtisadiyyatının müxtəlif sahələrinin davamlı inkişaf etdirilməsini dəstəkləyir. Dayanıqlı inkişafa nail olmaq üçün insan fəaliyyətini məhdudlaşdırmaqla, bərpa olunan enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı prosesinin təşviqi, dayanıqlı kənd təsərrüfatı və ekoloji təmiz istehsalın təmin olunması, resurslardan səmərəli istifadə də mühüm əhəmiyyət kəsb edir. Ərzaq təhlükəsizliyi, iqtisadi artım və xarici ticarət baxımından kənd təsərrüfatı ölkə iqtisadiyyatında mühüm rol oynayır. Bu baxımdan dayanıqlı kənd təsərrüfatına nail olmaq bu sahədə mövcud problemlərin həlli üçün əhəmiyyətli hesab olunur. Bu gün dünya əhalisinin və onun ərzağa olan tələbatının artması, eləcə də ekoloji problemlərin aradan qaldırılması kənd təsərrüfatı sisteminin daha məsuliyyətli istiqamətdə yenidən qurulmasını tələb edir. Kənd təsərrüfatı ölkələrin iqtisadi inkişafında mühüm rol oynamaqla yanaşı iqtisadi artıma və ətraf mühitin qorunmasına, insanların rifah səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradır. Bu konteksdən davamlı kənd təsərrüfatı üsullarını tətbiq etməklə ənənəvi əkinçilik sisteminin ətraf mühitə təsirini azaldaraq, yüksək məhsuldarlıq və istehlakçılar üçün daha sağlam məhsullar istehsal etmək mümkündür.

Dayanıqlı kənd təsərrüfatının əsas məqsədlərinə aşağıdakılar daxildir (Food and Agriculture Organization of the United Nations, 2015):

- torpağın münbitliyinin təmin edilməsi və biomüxtəlifliyin qorunması;
- ekoloji çirklənmənin qarşısının alınması və ekoloji şəraitin yaxşılaşdırılması;
- bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi;
- regionların iqtisadi inkişafına dəstək;
- fermerlərin həyat keyfiyyətinin yüksəldilməsi;
- insanların ekoloji düşüncəsinin formalaşması və məsuliyyətin artırılması.

*Dayanıqlı kənd təsərrüfatı konsepsiyası* iqtisadi, sosial və ekoloji sahələri əhatə edən istiqamətləri özündə birləşdirir. İqtisadi nöqteyi-nəzərdən kənd təsərrüfatı üzrə biznesinin səmərəliliyini və gəlirliliyini təmin edir. Sosial konteksdən insanların sağlam qida ilə təmin olunmasına, ədalətli məşğulluq sisteminin yaradılmasına və ümumi inkişafı nəzərdə tutur. Ekoloji cəhətdən isə kənd təsərrüfatı sistemində ən az çirklənmə və bərpa olunan resursların istehlakı ilə təbiətə uyğun yanaşmanı təşviq edir.

Qlobal iqtisadi inkişaf şəraitində ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə dayanıqlı kənd təsərrüfatı sisteminə təbii resursların qorunması yolu ilə nail olmaq mümkündür. Bu resursların (torpaq, su, enerji və hava) gələcəkdə məhsul istehsalı üçün əlçatan olması müasir dövrdə onların düzgün idarə olunmasından çox asılıdır. Dayanıqlı inkişaf şəraitində kənd təsərrüfatının inkişafı istiqamətində yüksək məhsuldarlığa nail olmaq üçün müxtəlif təcrübələrin tətbiqi (növbəli əkin sistemi və məhsul dövriyyəsi; davamlı kənd təsərrüfatında suvarma texnikaları; qoruyucu bitkilər; minimum və ya sıfır əkin ilə davamlı kənd təsərrüfatı; inteqrasiya edilmiş alaq otlarının idarə edilməsi; permakultura və s.) effektiv hesab olunur (Abobatta və Fouad, 2024). Bunlardan:

*Növbəli əkin sisteminin və ya məhsul dövriyyəsinin tətbiqi (Crop rotation).* Bu üsul müxtəlif məhsul növlərinin müəyyən ardıcıllıqla əkilməsi və davamlı kənd təsərrüfatında məhsul müxtəlifliyinin təmin edilməsini nəzərdə tutur. Təcrübənin tətbiqi:

- müxtəlif kök sistemləri sayəsində sıxlığı minimuma endirir;
- torpağı azot fiksasiya edən bitkilərlə təmin edir;
- zərərvericilərə qarşı mübarizəyə kömək edir;
- torpağın tükənməsini, kimyəvi maddələrdən istifadəni və əkinçilik risklərini azaldır;

- torpağı üzvi maddələrlə təmin edir və torpaq biotasının fəaliyyətini stimullaşdırır.

*Davamlı kənd təsərrüfatında suvarma texnikaları (irrigation techniques).* Məhsulların becərilməsinin yüksək səviyyədə təmin olunması su və enerji resurslarının böyük istifadəsini əhatə edən suvarma sistemindən asılıdır. Davamlılıq bitkilərin nəmləndirilməsi ehtiyaclarını dəstəkləmək, eyni zamanda su və enerji istehlakını optimallaşdırmaq məqsədi daşıyır. Kənd təsərrüfatında davamlı su istifadəsi daha az su istehlak edən bitki növlərinin əkilməsi və ağıllı suvarma üsullarının tətbiqi ilə həyata keçirilir. Burada, xüsusilə, damcı (damlama) və çala (daşqın) suvarma üsulunun tətbiqi nəticəsində suya 20-40% qənaət edilməklə, 20-50% daha çox məhsul əldə etmək mümkündür (İnomjonova, 2024).

*Qoruyucu bitkilər (cover crops).* Fermerlər qoruyucu bitkiləri əkməklə malik olduqları torpaq sahələrini eroziyadan qoruyurlar. Həmçinin bu üsul torpağın üzvi maddələrlə zənginləşməsinə kömək edir və bu da gübrə xərclərini azaldır. Bundan əlavə, alaq otları ilə mübarizə aparır və torpağın nəmliyini qoruyub saxlayır. Çiçəkli örtük bitkiləri təbii olaraq arıların və digər tozlandırıcıların çoxalmasına kömək edir.

*Minimum və ya sıfır əkin (minimum or zero tillage)*. Dayanıqlı kənd təsərrüfatı fəaliyyəti ilə adi əkinçilikdə müntəzəm şumlamanın əvəzinə yeni, minimum və ya sıfır əkin üsullarının tətbiqi torpağın quruluşunu qorumağa, suyun torpaqda saxlanılmasına və eroziyanın qarşısını almağa kömək edir. Həmçinin torpaqda olan müxtəlif mikroorqanizmlər təbii olaraq fəaliyyət göstərməyə davam edir. Torpağın becərilməməsi torpağın sıxılmasının qarşısını alır, iş vaxtını və qalıq emissiyalarını minimuma endirərək iqtisadi və ekoloji sabitliyə töhfə verir.

*Zərərvericilərə nəzarət və inteqrasiya edilmiş zərərvericilərin idarə olunması.* (Pest control and integrated pest management -İPM). Zərərvericilərə və inteqrasiya olunmuş zərərvericilərə qarşı mübarizə kompleks şəkildə aparıldıqda daha səmərəli olur. Dayanıqlı kənd təsərrüfatında İPM-nin rolu insanlara və ümumilikdə təbiətə dəyən zərərin səviyyəsini minimuma endirməkdir. Buna görə də zərərvericilərə qarşı həyata keçirilən inteqrasiya olunmuş mübarizə üsulları ilk növbədə bioloji və mədəni mübarizəyə əsaslanır. Bioloji tədbirlər zərərvericiləri, onların sürfələrini və yumurtalarını məhv etmək məqsədilə yırtıcı böcəklərdən və quşlardan istifadəni əhatə edir.

*İnteqrasiya edilmiş alaq otlarının idarə edilməsi* (Integrated Weed Management). Davamlı alaq otlarına qarşı tətbiq edilən mübarizə strategiyaları kimyəvi maddələrdən istifadəni minimumlaşdırmaq və təbiətə uyğun təcrübələr tətbiq etməklə təbii ehtiyatları qorumaq məqsədi daşıyır. Bunlar alaq otlarını məhv etmək üçün daha davamlı məhsul növlərini, qoruyucu bitkiləri, böcəkləri və quşları, mexaniki alaq otlarını, allelopatik (bitkilərin inkişafına mane olan) bitkiləri, əkin dövriyyəsini və digər orqanik əkinçiliklə mübarizə tədbirlərini nəzərdə tutur.

Kənd təsərrüfatında davamlılığı təmin edən yanaşmalardan biri də permakulturadır (permaculture). “Permakultura” sözü permanent (daimi) və culture (mədəniyyət) sözlərinin birləşməsindən yaranmışdır. Məqsəd insanların ehtiyaclarını qarşılayan davamlı, ekoloji cəhətdən faydalı bir sistem yaratmağa yönəlmişdir. Texnika tullantıları azaltmaqla, yenilənə bilən mənbələrdən istifadə etməklə, çirklənmə ilə mübarizə aparmaqla və təbiətə uyğun üsullarla torpağın münbitliyini yaxşılaşdırmaqla davamlılığı təşviq edir (Mellor, 2017). Bununla, ətraf mühitə uyğunlaşaraq, torpaq, su, enerji, bitki və heyvanların qarşılıqlı əlaqələrini balanslaşdırmaq məqsədi daşıyır. Ümumilikdə, permakultura təbiətə müdaxilə etmədən və ona zərər vermədən kənd təsərrüfatı sistemində davamlılığı təmin etməklə insanların rifah səviyyəsinin yaxşılaşdırılmasını nəzərdə tutur.

Qeyd edilən metodlardan başqa davamlılığı təmin edən digər kənd təsərrüfatı metodları da vardır. Bunlardan: polimədəniyyət, məhsul qalıqlarının idarə edilməsi (CRM), biodinamik və üzvi əkinçilik, heyvandarlıq və bitkilərin inteqrasiyası, qarşılıqlı əkinçilik, malçlama (torpağın üstünü müəyyən materiallarla örtmək prosesi), konservativ torpaq becərilməsi, bioyanacaqdan və sıfır emissiyalı nəqliyyatdan istifadə, aqromeşəçilik və s. aiddir.

Kənd təsərrüfatı sistemində hər bir məhsulun becərilməsi məhsulun xüsusiyyətindən, iqlim şəraitindən, torpağın münbitliyindən asılı olaraq fərqli metod tələb edir. Ən yaxşı təcrübə bütün elementlərin bir-biri ilə əlaqəli olduğu və eyni dərəcədə qiymətləndirildiyi sistemlərin və landşaftların vahid idarə edilməsidir. Müasir iqtisadi şərait konteksindən dayanıqlı kənd təsərrüfatı sisteminin əsas üstünlükləri:

*İqtisadi konteksdən:* yeni əkinçilik metodlarından istifadə etməklə, xərclərin azaldılması; məhsuldarlığın artırılması sayəsində ərzaq təhlükəsizliyinin təmin olunması; fosul yanacaqlardan istifadəni minumumlaşdırıraq enerjiyə qənaətin edilməsi.

*Sosial konteksdən:* əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması və müvafiq əmək haqqı ilə təminolunma (təbii ki, işçi müvafiq biliklərə malik olmalı, becərilmə üsullarını bilməlidir), sosial inkluzivlik və sağlam cəmiyyətdə yaşamaq.

*Ekoloji konteksdən*: ətraf mühitin çirklənməsinin qarşısını alır, təbii ekosistemlərin qorunması, biomüxtəlifliyin dəstəklənməsi, torpaq eroziyasının və qida maddələrinin tükənməsinin qarşısını alaraq torpağın qorunması və təbii resurslara qənaət edilməsi.

Lakin qeyd etmək lazımdır ki, üstünlüklərlə yanaşı dayanıqlı kənd təsərrüfatının həyata keçirilməsində fermerlərin qarşılaşdığı müəyyən çətinliklər də mövcuddur. Dövlət tərəfindən təşəbbüslərin, tədqiqatların aparılması üçün maddi bazanın zəif olması, texnoloji avadanlıqlarla təminat səviyyəsinin qənaətbəxş olmaması, müvafiq qanunvericilik qaydalarının təkmil olmaması, torpağın mühafizəsi üzrə məhdudiyyətlərin olması (bu məhsul istehsalının həcmini azaldır) əsas çətinliklər hesab olunur.

Təsərrüfat sisteminin daha dayanıqlı hala gətirən əsas amillərdən biri avtomatlaşdırılmış texnologiyaların tətbiqidir. Onların tətbiqi nəticəsində fermerlər resursları daha yaxşı idarə edə bilir, həmçinin tullantıların azaldılmasına və əməliyyatların optimallaşdırılmasına şərait yaranır. Əkinçilikdə avtomatlaşdırma kənd təsərrüfatı sistemlərinin işində inqilab etmək, məhsuldarlığı artırmaq və ətraf mühitə təsirləri minimuma endirmək potensialına malikdir. İnqilabi dəyişikliyin ən vacibi sahə monitorinqinin avtomatlaşdırılmasıdır. Yüksək səviyyəli avtomatlaşdırılmış sistemlərin qurulması fermerlərə real vaxt rejimində torpağın nəmliyi, temperaturu, sağlam məhsulun yetişdirilməsi və zərərvericilərin mövcudluğu kimi müxtəlif parametrləri izləməyə imkan verir (Qasımlı, 2021*)*. Bunun nəticəsində də dəqiq məlumatların əldə edilməsi ilə fermerlər həm aparılan əməliyyatlara, həm də ətraf mühitə birbaşa fayda verən məsuliyyətli qərarlar qəbul edə bilirlər. Məsələn, torpağın rütubət səviyyəsinə nəzarət edən avtomatlaşdırılmış suvarma sistemlərindən istifadə etməklə, fermerlər su istehlakını əhəmiyyətli dərəcədə azalda bilər, bu da bitkilərin lazımi miqdarda su almasını təmin edə bilər. Bu, su israfının qarşısını alır, bitkilərin su təminatını ödəyir və yerli su ehtiyatlarını qorumağa kömək edir. Xüsusilə vurğulamaq lazımdır ki, bu proses su qıtlığı ilə üzləşən regionlar üçün daha vacibdir. Bununla da daha dayanıqlı kənd təsərrüfatı iqtisadiyyatına nail olmaq mümkündür.

Milli iqtisadiyyatın kənd təsərrüfatı sektorunin iqtisadi inkiaşfı ilə iqtisadi artım arasında qarşılıqlı əlaqələr mövcuddur. İqtisadi artım əvvəlki dövrlə müqayisədə müəyyən bir dövr ərzində məhsul və xidmətlərin istehsalının kəmiyyət baxımından dəyişməsini göstərən iqtisadi göstəricidir və iqtisadiyyatda məcmu istehsalın artması ilə əlaqəli olaraq, ümumiyyətlə milli gəlirin artması kimi özünü göstərir. Çox vaxt ümumi daxili məhsulun artım səviyyəsi ilə müəyyənləşir.

Diaqramdan göründüyü kimi 2024-cü il üçün ölkə üzrə kənd təsərrüfatının ÜDM-də payı 5,66% təşkil etmişdir. Bu da əvvəlki il ilə müqayisədə cüzi şəkildə yüksəkdir. Müqayisə üçün qeyd etmək olar ki, dünya üzrə orta göstərici 9,68% olmaqla, Azərbaycanın nəticəsi qlobal orta səviyyədən aşağı mövqedə qərarlaşır. Tarixi dinamika baxımından, 1990-2024-cü illər ərzində ölkədə kənd təsərrüfatının ÜDM-də payının orta göstəricisi 12,44 % olmuşdur. Bu dövr ərzində maksimum göstərici 32,35% 1994-cü ildə, minimum isə 4,61% olaraq 2022-ci ildə qeydə alınmışdır. Təbii ki, bunun səbəbini pandemiyadan sonrakı bərpa dövrünün mövcud problemləri ilə əlaqələndirə bilərik *(Diaqram):*

**Diaqram.** Ölkədə kənd təsərrüfatının ÜDM-də payı, %-lə




***Mənbə:*** *https://www.theglobaleconomy.com/*

Göstəricilərin bu şəkildə dəyişməsi iqtisadiyyatın strukturunda sənaye və xidmət sektorlarının fəaliyyətinin genişləndirilməsi kənd təsərrüfatının payının nisbətən azalması ilə müşahidə olunmuşdur. Bu tendensiya həmçinin aqrar sahədə texnoloji modernləşmənin zəifliyi və əmək resurslarının digər sahələrə yönəlməsi ilə də izah olunur.

Kənd təsərrüfatında məhsuldarlığı artırmaq və davamlılığı təmin etmək baxımından qeyd edilən metodların tətbiqi nəticəsində ölkədə iqtisadi artım tempinin dəyişməsini (yaxşılaşmasını) müşahidə etmək mümkündür. Bu təcrübələrin mənimsənilməsinin iqtisadi təsiri yalnız kiçik ailə təsərrüfatlarında deyil, eyni zamanda büyük miqyasda kommersiya əməliyyatlarında da müxtəlif səviyyələrdə hiss olunur.

Ölkəmizdə təhlil aparılan dövr ərzində kənd təsərrüfatının ümumi məhsulu üzrə həm bütün təsərrüfat kateqoriyaları, həm də kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının mövcud göstəricilərinə nəzər saldıqda müəyyən artım səviyyəsi müşahidə olunur.

2023-cü ildə baza ili ilə müqayisədə bütün təsərrüfat kateqoriyaları üzrə cəmi ümumi məhsul 1,5 dəfə və ya 44,9%, o cümlədən bitkiçilik məhsulları üzrə 1,5 dəfə və ya 47,3%, heyvandarlıq məhsulları üzrə isə 1,4 dəfə və ya 42,6% artım müşahidə olunmuşdur. Kənd təsərrüfatı müəssisələri üzrə cəmi ümumi məhsul 1,6 dəfə və ya 61,9%, o cümlədən bitkiçilik məhsulları 1,6 dəfə və ya 58,3%, heyvandarlıq məhsulları üzrə 1,7 dəfə və ya 66% artmış, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında isə cəmi ümumi məhsul 1,4 dəfə və ya 43%, o cümlədən bitkiçilik məhsulları üzrə 1,5 dəfə və ya 46%, heyvandarlıq məhsulları üzrə 1,4 dəfə və ya 40,1% artım qeydə alınmışdır *(cədvəl )*.

**Cədvəl:** Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat

| **İllər** | **Bütün təsərrüfat kateqoriyaları** | | | **Kənd təsərrüfatı müəssisələri** | | | **Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Cəmi** | **Bitkiçilik məhsul-ları** | **Heyvan-darlıq məhsul-ları** | **Cəmi** | **Bitkiçilik məhsul-ları** | **Heyvan-darlıq məhsul-ları** | **Cəmi** | **Bitkiçi-lik məhsul-ları** | **Heyvan-darlıq məhsul-ları** |
| **2020** | | 4028.4 | 4400.5 | 834.5 | 438.3 | 396.2 | 7594.4 | 3590.1 | 4004.3 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 8428.9 | | | | | | | | |
| **2021** | 9163.4 | 4511.0 | 4652.4 | 885.9 | 467.3 | 418.6 | 8277.5 | 4043.7 | 4233.8 |
| **2022** | 10984.2 | 5538.0 | 5446.2 | 1094.0 | 509.2 | 584.8 | 9890.2 | 5028.8 | 4861.4 |
| **2023** | 12210.6 | 5933.9 | 6276.7 | 1351.1 | 693.7 | 657.4 | 10859.5 | 5240.2 | 5619.3 |

*Mənbə Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında tərtib edilmişdir.*

Kənd təsərrüfatının davamlı inkişaf konsepsiyasına uyğun olaraq inkişaf etdirilməsi iqtisadi artıma müxtəlif istiqamətlərdə birbaşa və dolayı təsir göstərir (Food and Agriculture Organization of the United Nations, 2003). Birbaşa təsirləri:

- ən əsas təsirlərindən biri məhsuldarlığın artırılması və gəlirin formalaşdırılmasıdır. Çünki qeyd edilən müvafiq təcrübələrin tətbiqi torpağın daha səmərəli olmasına və daha məhsuldar işləməsinə şərait yaradır. Bunun sayəsində fermerlər münbit torpaqlardan daha çox məhsul əldə edə bilirlər. Bu artan məhsuldarlıq fermerlər üçün daha yüksək gəliri formalaşdırır, lokal iqtisadiyyatı və kiçik biznesi stimullaşdırır, iqtisadi artıma töhfə verir;
- dayanıqlı kənd təsərrüfatı xərclərin azaldılmasına şərait yaradır. Ənənəvi kənd təsərrüfatı üsulları daha çox xərc tələb edən sintetik gübrələrin və pestisidlərin istifadəsinə əsaslanır. Müqayisədə, əkin dövriyyəsi (crop rotation), aralıq əkinçilik (intercropping) və üzvi əkinçilik (organic farming) kimi davamlı əkinçilik təcrübələrinin tətbiqi çox xərc tələb edən vəsaitlərə ehtiyacı azaldır. Ümumilikdə sənaye sahələrinin inkişafını stimullaşdırır;
- iqtisadi inkişaf baxımından kənd təsərrüfatı məhsullarına tələbatın artması, bazar əlaqələrinin genişlənməsi ölkənin ixrac potensialının artırılmasına şərait yaradır. Yeni bazarlarda kənd təsərrüfatı fəaliyyətinin genişlənməsinə, məhsuldarlığın artırılmasına səbəb olur və bazar tələblərini ödəmək üçün müasir texnikanın tətbiqini zəruri edir;
- şəhərdənkənar ərazilərdə davamlı kənd təsərrüfatı sənaye sahələrinin inkişafını stimullaşdırmaqla infrastrukturun yenidən qurulmasını zəruri edir. Müxtəlif infrastruktur sahələrinin inkişaf etdirilməsi (müxtəlif istiqamətli yolların çəkilməsi, anbarların, suvarma sistemlərinin yaradılması və s.) bazarlara daxilolmanı asanlaşdırır, ticarət əlaqələrini genişləndirir, fermerlərə və istehlakçılara müəyyən faydalar gətirir;
- təbii resursları qorumağa və ətraf mühitin çirklənməsinin qarşısını almağa kömək edir. Ekoloji təmiz texnologiyalar və metodların tətbiqi (məsələn, orqanik kənd təsərrüfatı, suvarma sistemlərinin səmərəliliyi) məhsuldarlığın artmasına və uzunmüddətli iqtisadi sabitliyə səbəb olur. Ətraf mühitin qorunması ilə iqtisadi artımın dayanıqlığı təmin edilir;
- dayanıqlı kənd təsərrüfatı kənd ərazilərinin inkişaf etdirilməsinə şərait yaradır. Əsasən inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı əhəmiyyətli məşğulluq mənbəyi hesab olunur. Kənd təsərrüfatı sistemində müxtəlif davamlı təcrübələrin tətbiqi kənd yerlərində məskunlaşan əhalinin

məşğulluq təminatını ödəyir və iqtisadi fəallığın stimullaşdırılmasına kömək edir (Sustainable Agriculture Research and Education-SARE). Aqrobiznes, nəqliyyat və qida emalı kimi sənaye sahələrinin inkişafına da şərait yaradır;

- kənd təsərrüfatı sahələrinin inkişafı həmçinin ərzaq təhlükəsizliyini təmin edir, ərzaq məhsullarının qiymətləri arasındakı fərq səviyyəsini azaltmaqla iqtisadiyyatın sabitliyini təmin edir. Güclü kənd təsərrüfatı sisteminin mövcudluğu xarici şoklara qarşı iqtisadi dayanıqlığı artırır;
- emal prosesi zamanı daha yüksək dəyərli, innovativ məhsullar (qablaşdırılmış qidalar, müxtəlif içkilər və tekstil məmulatları) yaradılır. Bu da dəyər zəncirini inkişaf etdirməklə iqtisadi artımı və diversifikasiyanı gücləndirir.

Dayanıqlı kənd təsərrüfatı sisteminin iqtisadi artıma birbaşa təsirlərindən əlavə, dolayı təsirləri də vardır:

- dayanıqlı kənd təsərrüfatı yalnız iqtisadi artımı təmin etmir, eyni zamanda sosial tərəqqi və ətraf mühitin qorunmasını da nəzərə alır. Karbon emissiyalarının səviyyəsini azaltmaqla və biomüxtəlifliyi təşviq etməklə, əhəmiyyətli iqtisadi xərclərə səbəb ola biləcək iqlim dəyişikliyinin təsirlərini minimumlaşdırır;
- davamlı kənd təsərrüfatı sosial sabitlik və iqtisadi inkişaf üçün çox vacib olan ərzaq təhlükəsizliyinin təmin olunmasına şərait yaradır. Sağlam qidaları təşviq etməklə və qida ilə əlaqəli xəstəliklərin yaranma riskini azaldır və səhiyyə xərclərinin azaldılmasına da kömək edir.

## NƏTİCƏ

Ümumi olaraq, dayanıqlı inkişaf prinsipləri əsasında müvafiq təsərrüfat təcrübələrinin tətbiqi ölkənin iqtisadi artımında mühüm rol oynayır. Davamlılığı təmin edən müasir aqrotexniki üsullar yüksək səmərəliliyi təmin edir, torpaq, su ehtiyatlarının, ətraf mühitin qorunmasına, kənd təsərrüfatı sistemində məhsuldarlığın artırılmasına, ixrac potensialının genişləndirilməsinə əlverişli şərait yaradır. İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalının məhsuldarlığının yüksək olması onların iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə və yeni iş yerlərinin yaranmasına səbəb olur. Beləliklə, kənd yerlərində yoxsul əhalinin rifah səviyyəsinin yüksəldilməsinə nail olunur. Dayanıqlı kənd təsərrüfatı modellərinin tətbiqi yalnız kənd təsərrüfatı sahəsində deyil, ümumilikdə milli iqtisadiyyatın uzunmüddətli inkişafı üçün əsas bazis yaradır. Bu baxımdan, davamlı təcrübələrin genişləndirilməsi, kənd təsərrüfatı qarşısında duran çətinliklərin aradan qaldırılması və müxtəlif istiqamətlərdə dövlət dəstəyinin gücləndirilməsi nəticəsində gələcəkdə daha dayanıqlı və məhsuldar kənd təsərrüfatı sisteminin qurulması təmin olunacaq və bu, ölkənin davamlı iqtisadi inkişafına əsaslı töhvələr verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

1.Aksoy, U., Boz, İ., Eynalov, H., & Quliyev, Y. (2018). Azərbaycanda orqanik kənd təsərrüfatı: Hazırkı durum və gələcək inkişaf potensialı. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Bakı.
2.Qasımlı, V. (2021). İqtisadi artım: Post-konflikt və post pandemiya dövrü: Çağırışlar və həllər. Bakı.
3.Aqrar Tədqiqatlar Mərkəzi. (2021). Kənd təsərrüfatının iqtisadiyyatı, (4[38]), 125 səh. Bakı: Aqrar Tədqiqatlar Mərkəzi. (Elmi-praktiki jurnal)
İngilis dilində :
4.Abobatta, W. F., & Fouad, F. W. (2024). Sustainable agricultural development: Introduction and overview.
5.Barkley, A., & Barkley, P. W. (2013). Principles of agricultural economics. Routledge.
6.Food and Agriculture Organization of the United Nations. (2003). World agriculture: Towards 2015/2030: An FAO perspective. FAO.

7.Food and Agriculture Organization of the United Nations. (2015). Training manual for organic agriculture. FAO.
8.İnomjonova, F. A. (2024). Assessment of the impact of agriculture on economic growth. American Journal of Economics and Business Management, 7
9.Mellor, J. W. (2017). Agricultural development and economic transformation: Promoting growth with poverty reduction. Palgrave Macmillan.
10.Ministry of Economy of the Republic of Azerbaijan. https://economy.gov.az/az
11.State Statistical Committee of the Republic of Azerbaijan. Sustainable Development Goals Portal. https://sdg.azstat.gov.az/az/home
12.Sustainable Agriculture Research and Education (SARE). https://www.sare.org
13.The Global Economy.com. https://www.theglobaleconomy.com
14.World Bank. https://www.worldbank.org